**GÜLZAR HƏSƏNOVA**
**H.Əliyev ad.Azərbaycan Ali Hərbi Məktəbi**
**General Naximov küç.18**
**gülzar.@.mail.ru.**

# NİTQ PROSESİNDƏ PSİXOLİNQVİSTİK AMİLLƏR,ONUN ÖYRƏNDİYİ SAHƏLƏR VƏ MÜASİR DÖVRDƏ DİLÇİLİYİN PSİXOLOGİYASI

**Xülasə**

**Psixolinqvistika** (psycholinguistics) – psixologiya və linqvistikanın (dilçiliyin) vəhdətindən yaranmış elm sahəsi. Linqvistika nitqin təşkilini dil qanunlarına uyğun olaraq öyrənir. Psixolinqvistika isə nitqin yaranması prosesinə, nitqin qavranmasına və doğma dillə xarici dilin necə dərk olunmasına müraciət edir. Psixolinqvistika nitqi ilk öncə psixoloji fenomen kimi öyrənən dilçilik sahəsidir. Psixolinqvistikaya görə dil danışanın və dinləyənin, yazanın və oxuyanın daxili dünyası qədər mövcud bir faktordur. Bu sahə "ölü" dilləri öyrənmir, çünki bu zaman qədim yazılarla yanaşı həmin dilləri yaradan cəmiyyətin psixi dünyası gəlib çatmayıb.Psixolinqvistikanı qismən linqvistika və qismən də psixologiya kimi qiymətləndirmək düzgün deyil. Bu, dili, nitqi öyrəndiyinə görə linqvistikaya və dili müəyyən aspektdən – psixoloji fenomen kimi öyrəndiyinə görə psixologiyaya aid olan kompleks elmdir.

Psixolinqvistika təxminən 50 il bundan öncə ABŞ-da yaranmışdır. Psixolinqvistika termininin özü 1950-ci illərdə ABŞ-da artıq yaranmaqda olan yeni istiqaməti xarakterizə etmək üçün istifadə olunmuşdur. Bu terminin yaranma tarixi 1953-cü il hesab olunur ki, sosial elmlər üzrə aparılan araşdırmaların nəticələrinin müzakirəsi üçün İndiana universitetində universitetlərarası seminar təşkli olunmuşdur.

**Açar sözlər: psixolinqvistika,dilçilik elmi,nitq prosesi,daxili nitq,zahiri nitq**

Təqdim olunan məqalədə psixolinqvistikanın öyrəndiyi sahələr-nitqin yaranması, nitqin yaranmasının mərhələli xarakteri, daxili nitqin növləri, nitq mülahizəsinin böyük və kiçik proqramları,nitqin qavranması, nitq söyləmənin formasının qavrayışı və məzmunla mənanın konstruksiyası, nitq qavrayışının mərhələli xarakteri, mətnin real həqiqətləri əks etdirmə vasitəsi kimi qavrayışı,dilin ontogenezi, anadangəlmə qazanılmış dil qabiliyyəti, dil qabiliyyətinin formalaşmasının ilkin şərtləri, doğma və xarici dillərin öyrənilməsi zamanı yaranan fərq, ontogenez biliyinin ümumiləşdirilməsinin formalaşdırılması,nitqi ünsiyyət, fəaliyyət, ünsiyyət, kommunikasiya və dilin nisbəti, fəal ünsiyyət sxemi, ünsiyyətin əlavə modellərin köməyi ilə təsviri, ünsiyyət prosesinin modeli və s.problər öyrənilir. [1-100].

Nitq prosesi təkcə bioloji deyil, eyni zamanda psixoloji faktor olub insanı xarakterizə edir. Yəni daha sadə desək, əgər ünsiyyətdə olduğumuz insanın nitqinə, tez-tez işlətdiyi ifadələrə fikir versək, o zaman həmin insanın xarakteri, onun düşüncəsi haqqında düzgün nəticələr çıxara bilərik.Elmin bütün sah ələrind ə oldu ğu kimi, dilçilikd ə d ə millilik v ə bəşərilik mövcuddur. Bel ə ki, bir çox dil kateqoriyaları milli s əciyy ə daşıdığından yalnız bir v ə ya bir neç ə qohum dil ə m əxsus oldu ğu halda, el ə dilçilik v ə ya dil m əsələləri var ki, ona yalnız bəşəri mövqed ən yanaşılmalı, ümumi dilçilik yönümünd ən araşdırılmalıdır. Bu m əsələlərə ilk növb ədəbi dilə müxtəlif aspektl ərd ən yanaşmanın n ətic əsi olaraq bir neç ə elmin qovuşugunda meydana çıxan neyrolinqvistika, psixolinqvistika, riyazi dilçilik, kompüter dilçiliyi v ə s. kimi yeni elm sah ələrini aid etm ək olar. Dünya dilçil ərinin bu sah ələrd əki t ədqiqatlarından bəhrələnməklə Azərbaycan dilçiliyində də bu sahə d ə yeni axtarışların aparılması, maraqlı araşdırmaların meydana çıxması, yeni söz deyilm əsin ə c əhdl ərin göst ərilm əsi t əqdir olunmalı v ə yüks ək qiym ətl əndirilm əlidir. Az ərbaycan dilçiliyində son illər dilin psixoloji yönələn

araşdırılmasına – neyrolinqvistika, psixolonvistika v ə linqvopsixologiyaya meyl olduqca gücl ənmişdir. Müəllif öz tədqiqat obyektinin – linqvopsixologiyanın mahiyyətinin oxuculara aydın və anlaşıqlı olması, tədqiqatın əsas məqsədinin onlara yetərincə çatdırılması üçün linqvopsixologiyanın nəzəri məsələlərini işıqlandırmağa çalışır, dilin psixoloji problemləri ilə bağli nəzəri fikir və müddəaların tənqidi analizi fonunda mübahisəli məqamlara münasibətini bildirir, dərketmə və təfəkkür mexanizmini aydınlaşdırmağa cəhd göstərir. Kitabın "Təfəkkür prosesləri baxımından forma, nitq və dil" adlanan hissəsində leksik və qrammatik formaların, eləcə də nitqin yaranması və mənimsənilməsi mexanizmi öyrənilir, bu mexanizmin modelləşdirilməsinə səy göstərilir, xüsusən uşaqlarda nitqin yaranma mexanizminin fərqliliyi şərh olunur. Təfəkkür prosesləri və dil məsələsi ilə bağlı dilin strukturunun linqvopsixoloji analizini aparan müəllif dilin xaotikliyi və sistem anlayışı, forma və məna vəhdətinin kökləri, dilin inkişaf tendensiyalrı, dilin linqvopsixoloji mahiyyəti məsələlərinə öz baxış bucağından işıq salmaqla yeni münasibət bildirməyə, özünə məxsus fikir və mülahizələrini təqdim etməyə çalışır. Onu da qeyd etməliyik ki, psixolinqvistika və linqvopsixologiya (dilin psixologiyası) əslində eyni obyektə müxtəlif yanaşma tərzindən irəli gəlmişdir. Belə ki, insan nitqinin yaranma və formalaşması, onun psixikada yeri məsələsinə psixolinvistika linqvistik, linqvopsixologiya isə psixoloji baxımdan yanaşır. Müxtəlif tarixi dönəmlərdə Amerikada, Avropada, eləcə də Rusiyada psixolinvistika sahəsində Humboldt, Blumfild, Xomski, Şerba kimi dünyaşöhrətli alimlər çalışmış və dünya psixolinqvistika məktəbinin təməlini qoymuşlar. Linqvopsixologiyanın isə bir məktəb kimi formalaşması ilk növbədə sovet dövrünə təsadüf edir və Vıqotski, Luriya, Svetkova kimi tanınmış sovet dilçilərinin adı ilə bağlıdır. [2-25].Hər iki məktəbin uğurlarına söykənən psixolinqvistika və linqvopsixologiyanın Azərbaycan dilçiliyinə tam yol açmasına, türk dillərinin zəngin materialları əsasında Azərb.psixolinqvistikasının daha da inkişafına və formalaşmasına çalışan, elmi məqalələri, beynəlxalq elmi məclislərdə maraqla dinlənilən məruzələri ilə elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan M.Əsgərov öz gərgin zəhməti sayəsində meydana gələn araşdırmaları ilə məqsədinə nail olmuş, Azərbaycan dilçiliyinə dəyər və sanbalı ilə, elmi-nəzəri yükünün ağırlığı ilə seçilən, kimləri və nələrisə təkrarlamaqdan uzaq olan, dilçi məntiqi təfəkkürünün bəhrəsi sayılan hamımız üçün faydalı ola biləcək "Linqvopsixologiya və ya dilin psixologiyası" kimi qiymətli bir əsər ortaya qoymuşdur. İnanıram ki, kitab müəllifinə yeniyeni elmi uğurlar qazandıracaqdır.

**Müasir elmlər sistemi və psixologiya.** Müasir dövrdə psixologiya insan haqqında ən mühüm elmlərdən biri kimi diqqəti cəlb edir. Təsadüfü deyildir ki, hazırda insan həyatı və fəaliyyətinin elə bir sahəsi yoxdur ki, psixologiya elmi oraya nüfuz etməsin. Mübaliğəsiz demək olar ki, hazırki dövrdə bütün dünyada hər cür fəaliyyətin və insan munasibətlərinin səmərəliliyini psixoloji biliklərin tətbiqində görürlər. Lakin nəzərə almaq lazımdır ki, mühüm elm sahəsi olan psixologiya başqa elmlərdən təcrid olunmuş şəkildə deyil, onlarla vəhdətdə mövcuddur və fəaliyyət göstərir. Bəs elmlər sistemində psixologiya elmi hansı yeri tutur, onun başqa elmlərlə qarşılıqlı əlaqəsi nədən ibarətdir?Elmlər sisteminin təsnifatını verən B.M.Kedrov bu sistemdə psixologiyanın roluna xüsusi diqqət yetirmişdir. Onun «elmlər üçbucağı»nda bunu aydın görürük. B.M.Kedrova görə psixologiya bir tərəfdən fəlsəfə elmləri, digər tərəfdən təbiət elmləri, üçüncü tərəfdən humanitar elmlər içərisində aralıq mövqe tutur.Psixologiya bu elmlərin məlumatlarını özündə birləşdirir və eyni zamanda onlara təsir etməklə insan haqqında elmlərin modelinə çevrilir. Psixologiyanın başqa elmlərlə əlaqəsinə qısa nəzər yetirək.İnsan psixikası və davranışını onun təbii və sosial mövcudluğu haqqında biliklər olmadan başa düşmək mümkün deyildir. Ona görə də psixologiyanın öyrənilməsi insan biologiyası, onun ali sinir sisteminin quruluşu və fəaliyyəti haqqında biliklərə yiyələnməyi tələb edir. Psixi hadisələr və mərkəzi sinir sisteminin fəaliyyəti arasındakı əlaqə haqqında biliklər ali sinir fəaliyyətinin fiziologiyasında öz konkret əksini tapmışdır. [4-110]. Təsadüfü deyildir ki, psixologiyanın təbii elmi əsaslarından danışarkən məhz ali sinir fəaliyyətinin qanunularına istinad edilir.Psixologiya cəmiyyətin tarixi və mədəniyyəti ilə sıx bağlıdır. Belə ki, insanda ali psixi funksiyaların inkişafında

sivilizasiyanın əsas tarixi nailiyyəti olan əmək alətləri və işarə sistemi həlledici rol oynamışdır.İnsan psixikasının dərindən öyrənilməsinə, onun başa düşülməsinə ***sosiologiyanın əsasları*** haqqında biliklər də imkan yaradır. Bunu sosial psixologiyanın sürətlə inkişafı bir daha təsdiq edir. Müasir dövrdə sosial psixologiya insan münasibətlərinin bütün sahələrinə nüfuz etməklə insanın sosial-bələdləşmə davranışının psixi xassələrə necə yiyələnməsini aydınlaşdırmağa imkan verir.

Psixologiya ***fəlsəfə*** elmi ilə ciddi qohumluq əlaqəsinə malikdir. Bu təsadüfü deyildir. Məlum olduğu kimi psixologiya müstəqil bir elm kimi fəaliyyət göstərənə kimi fəlsəfənin daxilində formalaşmağa başlamışdır. Şübhəsiz şəxsiyyətin psixoloji «ölçülərini» insan, onun spesifik həyat şəraiti, gerçəkliyi dərk etməsi və fəaliyyət haqqında fəlsəfi biliklərə istinad etmədən müəyyənləşdirmək və öyrənmək mümkün olmazdı.Şüur, təfəkkür və digər psixi hadisələr insanlara anadangəlmə, hazır şəkildə verilmir. Bunlar ontogenezdə (fərdi inkişaf prosesində) insanın təlim və tərbiyəsi prosesində əldə edilir. Buradan isə psixologiyanın ***pedaqogika*** elmi ilə əlaqəyə malik olduğu özünü göstərir. Psixologiya və pedaqogika elmləri arasında başlıca əlaqə həmin elmlərin predmetlərinin yaxınlığı ilə bağlıdır. Əvvala həmin elmlərin obyekti inkişaf etməkdə olan insandır (uşaq və yaşlı). Digər tərəfdən, psixologiya insan psixikasının inkişaf qanunlarını öyrənir. Pedaqogika isə şəxsiyyətin inkişafının idarə olunması qanunlarını işləyib hazırlayır. İnsanın tərbiyəsi, təhsili təlimi onun psixikasının, təfəkkürünün, fəaliyyətinin məqsədəyönəlmiş şəkildə inkişaf etdirilməsi deməkdir. Psixologiya və pedaqogika elmlərinin mühüm qarşılıqlı əlaqəsini göstərən amillərdən biri də onların tədqiqat üsullarındakı eyniyyətdir. Bir çox elmi psixoloji axtarışlar pedaqoji problemlərin həlli üçün vasitə rolunu oynaya bilir. Bir elmi fənn kimi pedaqogikada pedaqoji faktların izahı, şərhi, sistemləşdirilməsi üçün psixoloji biliklərdən istifadə olunur. Pedaqoji fəaliyyətin nəticələri psixoloji diaqnostikanın köməyi ilə aşkara çıxarılır.

Bunlarla yanaşı olaraq müasir psixologiya elmi öz qarşısında duran ümumi və xüsusi vəzifələri həyata keçirərkən pedaqogika ilə yaxın təmasda fəaliyyət göstərir, pedaqogika elminin əldə etdiyi nəticələrə istinad edir.

Müasir dövrdə ***psixologiya və dilçilik*** arasında da sıx əlaqə özünə geniş yer tutmağa başlamışdır. Bunun aydın təzahürünü ***psixolinqvistikanın*** meydana gəlməsində görürük.

***Psixolinqvistika*** nitq davranışını psixoloq və linqvistlərin kompleks şəkildə öyrənmələrini nəzərdə tutan elm sahəsidir. Linqvistika və nitqin psixologiyası ilə müqayisədə psixolinqvistika özünün müstəqil tədqiqat predmetinə malikdir. Psixolinqvistikanı daha çox psixologiya «özününkü» hesab edir. Doğrudur, psixologiyada hələ çoxdan mövcud olan sahə – nitqin psixologiyası sahəsi vardır. Nitq psixologiyasının predmeti psixolinqvistikanın obyekti və predmeti ilə üst-üstə düşür. Ona görə də çox vaxt bu iki fənni bir-biri ilə qarışdırırlar. Bu cür eyniləşdirməyə əsas olsa da, hər-halda bu iki termini bir-birindən fərqləndirən cəhətlər də mövcuddur. Onların fərqi başlıca olaraq öyrənmə predmetində özünü göstərir. Psixologiya nitqin yaranması, anlaşılması və formalaşmasının gedişi zamanı öz diqqətini daha çox şüurun psixi funksiyalarının xüsusiyyətlərinə yönəldirsə, psixolinqvistika bunlarla yanaşı bu funksiyaların insanların nitq fəaliyyətində və nitq davranışında ifadə vasitələrini (verbal və qeyri-verbal) də nəzərə almağa çalışır.

Psixolinqvistika olduqca gənc elmdir. O, təxminən XX əsr 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində meydana gəlmişdir. Sovet psixolinqvistika məktəbinin «atası» A.A.Leontyev olmuşdur.Elm sahəsinin genişlənməsi sayəsində psixolinqvistikanın müxtəlif sahələri meydana gəlmişdir. Bunlardan ümumi psixolinqvistika, xüsusi psixolinqvistika, sosial psixolinqvistika, yaş psixolinqvistikasını (ontolinqvistika) göstərmək olar.

**Psixologiya elminin əsas sahələri.** Psixologiya çoxsahəli bir elmdir. Müasir dövrdə psixologiya elminin nisbətən müstəqil şəkildə inkişaf edən müxtəlif sahələri vardır. Məhz buna görə də «psixologiya elmi» deyil «psixologiya elmləri» termininin işlədilməsi daha çox yerinə düşərdi. Belə ki, hər 4-5 ildən bir psixologiya elminin yeni bir sahəsinin yaranmasının şahidi oluruq.Psixologiyanın çoxsaylı sahələrini təsnif etmək üçün müxtəlif prinsiplərdən istifadə

olunur. Hər şeydən əvvəl psixoloji fənnləri fundamental və tətbiqi, ümumi və xüsusi olmaqla təsnif etmək mümkündür.Psixologiya elminin fundamental və ya baza sahələri psixologiyanı və insanların davranışını kimliyindən və hansı fəaliyyət sahəsində çalışmasından asılı olmayaraq hamının başa düşəcəyi şəkildə şərh etməyə yönəldilmiş sahələrdir. [3-10]. Psixologiyanın bu sahələri psixologiya və insan davranışı ilə maraqlanan adamların hamısı üçün eyni zəruri məlumatları çatdırır. Bu cür universallığından asılı olaraq psixologiyanın həmin sahəsi «ümumi psixologiya» adı altında izah olunmuşdur.

## Ədəbiyyat:

**1.Ə.Ə.Əlizadə:Psixologiya** elminin predmeti mürəkkəblliyi , çoxsəhəliliyi
və **Psixologiya** elminin inkişaf mərhələləri; Bakı,Maarif nəşr.1989,səh:24-28
2.Ümumi psixologiya - Elektron kitabxana – BDU.2016.səh:124-131.
3.CƏFƏR İBRAHİMOV :”Pedaqoqika və Psixologiya”B,”Elm”nəşr.1994 səh:25-27
4.Seyidov S.İ.,Həmzəyev M.Ə.”Psixologiya”Bakı.2007.səh:72-79

**G.Gassanova**

## In the process of speech psycholinguistic factors he learned areas and modern times the phsyology of language

## Summary

Psychologists of diverse orientations also consider the unconscious mind. Psychologists employ empirical methods to infer causal and correlational relationships between psychosocial variables. In addition, or in opposition, to employing empirical and deductive methods, omeespecially clinical and counseling

psychologistsat timesrely upon symbolic interpretation and other inductive techniques. Psychology has been described as a "hub science" in that medicine tends to draw psychological research via neurologyand psychiatry, whereas social sciences most commonly draws directly from sub-disciplines within psychology.

While psychological knowledge is often applied to the assessment and treatment - of mental healthproblems, it is also directed towards understanding and solving problems in several spheres of human activity. By many accounts psychology ultimately aims to benefit society. The majority of psychologists are involved in some kind of therapeutic role, practicing in clinical, counseling, or school settings. Many do scientific research on a wide range of topics related to mental processes and behavior, and typically work in university psychology departments or teach in other academic settings (e.g., medical schools, hospitals). Some are employed in industrial and organizationalsettings, or in other areas[8] such as human development and aging, sports, health, and the media, as well as in forensic investigation and other aspects of law.

Key words:psycholinguistics,linguistic research,the process of speech, Internal speech,external speech.

**Г.Гасанова**

**Психолингвистические нюансы во время речевого акта,его изучаемые области и психология языкознание в современном время**

**Резюме**

Как прикладная область знаний – формулировать рекомендации по совершенствованию профессиональной деятельности и обыденной жизни людей. Психология изучает закономерности психической деятельности для того, чтобы правильнее понимать человека и тем самым умело воздействовать на него. Поэтому значение психологии велико во всех видах практической деятельности, где люди вступают друг с другом в сложные взаимоотношения, воздействуют друг на друга. Знание психологии необходимо для правильной организации нравственного и умственного самовоспитания человека.

Психология помогает человеку разобраться в собственной психической жизни, понять самого себя, осознать свои сильные и слабые стороны, свои недостатки. Знание психологии открывает пути самосовершенствования умственной деятельности: зная, как улучшить свое внимание и память, как правильно усваивать учебный материал, можно научиться достигать наивысших результатов при наименьшей затрате времени и сил.Какое значение имеет термин «психология» в сознании обывателя, обычного среднестатистического человека?

К примеру, распространенное выражение: «У него такая психология». Что подразумевает совокупность особенностей характера, внутренний мир человека или же группы людей. В последнем случае психология группы – это взгляды, правила, обычаи, традиции, разнообразные внутренние процессы, протекающие в ней.

Ключевые слова:психолингвистика,наука языкознания,речевой просес, внутренний речь,разговорный речь.

Redaksiyaya daxil olma tarixi: 12.04.2019
Çapa qəbul olunma tarixi: 31.05.2019
Filologiya üzrə fəlsəfə doktoru,dosent.N. Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur.